# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

19 (71) 19 dekabr 2016-cı il

İctimai-siyasi qəzet


XÜSUSİ BURAXILIŞ

## Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

# Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!

Əziz dost, Sən Qarabağ qəhrəmanlarının şərəfli həyatından tam məlumatlı olmalı, onları yaxından tanımalısan. Tariximizə şanlı səhifələr yazmış insanları sizlərə tanıtmaqda məqsədimiz Qarabağın qəhrəmanlarını daim yaşatmaqdır...

## “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!” mövzusunda Bakı şəhərində seminar keçirilib




***Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə icra etdiyi “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!” layihəsi çərçivəsində noyabrın 8-də seminar–müşavirə keçirilib.***

Respublika Veteranlar Təşkilatının binasında keçirilən tədbirdə çıxış edən bu qurumun sədr müavini Cəlil Xəlilov layihənin məqsədindən, icrası istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, tədbir Qarabağ uğrunda müharibədə şücaət göstərərək “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüş, eyni zamanda, bu ilin aprelində şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.



Diqqətə çatdırılıb ki, layihə gənclərimizə xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan şəxslərin şərəfli həyat yolunun daha yaxından tanıdılması, xalqa, dövlətə sədaqət, tariximizə hörmət ruhunun aşılanması, onların arasında vətənpərvərlik ruhunun gücləndirilməsi, milli mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının işinə dəstək verilməsini nəzərdə tutur. Vurğulanıb ki, tədbirin məqsədi yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi ilə bağlı görülən işlərdə yaxından iştirak etmək, dövlət gənclər siyasətinin icrasına töhfə vermək, gənc nəsil üçün hərb tariximiz, döyüş ənənələrimiz, milli qəhrəmanlarımız, tarixi abidələrimiz haqqında geniş maarifləndirmə işi aparmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı ölkəmizin mövqeyini yeniyetmə və gənclərə çatdırmaqdır.

Tədbirdə xalqımıza qələbə sevinci yaşadan aprel döyüşləri qəhrəmanlarının igidliklərindən söhbət açılıb. Həmin döyüşlərin dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini, vətənpərvərliyini bir daha nümayiş etdirdiyi bildirilib.

Seminar-müşavirədə “Azərbaycan qəhrəmanlar diyarıdır”, “Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir”, “Torpaq uğrunda ölən varsa Vətəndir”, “Milli qəhrəmanlarımız” mövzularında məruzələr dinlənilib, müzakirələr aparılıb.




Tədbirdə Respublika Veteranlar Təşkilatının əməkdaşları, veteranlar, fəal gənclər, müvafiq dövlət və ictimai qurumların nümayəndələri, şəhid ailələrinin üzvləri, Azərbaycanın Milli Qəhrəmanı Rafiq Alıcanovun yaxınları iştirak ediblər.

Sonda bir neçə şəhid ailəsinə maddi yardım göstərilib.

Seminar-müşavirə Azərbaycanın Milli qəhrəmanlarına həsr olunan filmin nümayişi ilə başa çatıb.

# Respublika Veteranlar Təşkilatı gənclərin vətənpərvərlik tərbiyəsi işinə xüsusi diqqət ayırır



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihənin icrasını təmin etmək məqsədi ilə sentyabr- noyabr aylarında Şəki, Masallı, Xaçmaz, Şirvan şəhərlərində seminar-müşavirələr keçirilmişdir. Tədbirlərdə xalqımızın qəhrəmanlıq tarixindən, Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş şəxslərin eləcə də, aprel döyüşlərinin qəhrəmanlarından söz açılıb.



Seminar-müşavirələrdə Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov, e.o polkovniklər Adil Haqverdiyev və Lətif Babayev, Təşkilatın əməkdaşları Nəbi Hacıyev, Səidə Abdullayeva, İradə İbrahimova, tədbirlər keçirilən rayon və şəhərlərin veteran təşkilatlarının sədrləri, Milli Qəhrəmanların ailə üzvləri, o cümlədən, Milli Qəhrəman Yavər Şahbazovun atası Əlibaba Şahbazov və digərləri müxtəlif mövzularda çıxışlar edib, layihə çərçivəsində gənc nəslə vətənpərvərlik mövzusunda və milli qəhrəmanlarımız, onların şərəfli həyat və fəaliyyətləri haqqında mühazirələrlə çıxış ediblər.



Cəlil Xəlilov tədbirlərdə layihə haqqında məlumat vermiş, Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş şəxslərdən, bu gün rəşadətlə xidmət edən Azərbaycan əsgərindən, eyni zamanda 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs etmişdir.



Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqa, dövlətə sədaqət, tarixə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir. Habelə ölkədə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlərdə yaxından iştirak etmək, Azərbaycan dövlətinin həyata keçirdiyi Dövlət Gənclər siyasətinə dəstək vermək, gənc nəslə hərb tariximiz, döyüş ənənələrimiz, milli qəhrəmanlarımız, tarixi abidələrimiz haqqında geniş bilgilər çatdırmaqla maarifləndirmə işləri aparmaq, gənc nəslin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına hər an hazır olmaq ruhunda yetişmələri məqsədilə müvafiq təbliğat işləri aparmaq, yeniyetmə və gənclərə ən ağır problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı Azərbaycanın dövlət mövqeyinin çatdırılması ilə onları hərtərəfli məlumatlandırmaqdır.

Seminar-müşavirələrdə Şəki, Balakən Qəbələ, Qax, Oğuz, Zaqatala, Mingəçevir, Masallı, Astara, Cəlilabad, Biləsuvar, Lerik, Yardımlı, Şirvan, Ağsu, Şamaxı, Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, şəhər (rayon) veteran təşkilatlarının sədrləri, eyni zamanda Veteranlar Təşkilatının əməkdaşları, həmin rayonların fəal gəncləri, veteranları, şəhid ailələri, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Seminar-müşavirələrdə "Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir", "Qəhrəmanlar unudulmur", "Xalqı qəhrəmanlar ucaldır", "Azərbaycan qəhrəmanlar diyarıdır" Torpaq uğrunda ölən varsa vətəndir və s. mövzularında məruzələr dinlənilmiş, çıxışlar olmuş, gəncləri maraqlandıran suallar cavablandırılmışdır. Bu cür tədbirlərin tezliklə işğal altında olan torpaqlarımızda keçirilməsinə inam vurğulanmışdır. Gənclər hər an vətənin müafiəsinə hazır olduqlarını bildirmişdirlər.

Tədbirlərin sonunda Azərbaycan Milli Qəhərmanlarına həsr olunan filmlər nümayiş etdirilib, Şəki, Masallı, Şirvan və Xaçmaz rayonlarından olan bir neçə şəhid ailəsinə ərzaq yardımı edilib.

Ümumilikdə layihə bölgələrdə eləcə də, Bakıda yüksək səviyyədə təşkil olunmuşdur. Sevindirici haldır ki, gənclər seminar müşavirələrdə aktiv iştirak etmiş, Milli Qəhrəmanların keçdikləri şərəfli həyat yolunu nümunə görmüşdürlər. Qeyd edək ki, Respublika Veteranlar Təşkilatı gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini qarşıda duran prioritet məsələlərdən biri hesab edir. İstər bu layihədə, istərsə də bütün fəaliyyətində bu məsələyə həssaslıqla və məsuliyyətlə yanaşır.

# "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!"

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2016-cı il üçün Azərbaycan QHT-lərinin layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqədə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihə təklifi ilə çıxış etmiş və qalib gəlmişdir.



Layihənin rəhbəri Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Rzayev Dadaş Qərib oğludur. Minnətdarlıq hissi ilə ilə qeyd etmək istəyirəm ki, layihənin koordinatoru , Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Xəlilov Cəlil Malik oğlu layihənin yüksək səviyyədə həyata keçirilməsi üçün əlindən gələni əsirgəmədi. Eyni zamanda seminar-müşavirələrin həyata keçirilməsi üçün lazımi şəraitin yaradılmasında Şəki, Masallı, Xaçmaz, Şirvan şəhər (rayon) İcra Hakimiyyətləri başçılarının və həmin şəhər (rayon) veteran təşkilatlarının sədrlərinin rolları danılmazdır. Ümumiyyətlə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihənin həyata keçirilməsində əziyyəti olan hər bir kəsə öz təşəkkürümü bildirərək layihənin icrasının gənc nəslə əhəmiyyətli təsirindən bəhs etmək istəyirəm.

Qəzetin əvvəlki saylarından da oxucularımıza məlumdur ki, layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir. Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir. Böyüməkdə və hərbi xidmətdə olan gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsinə kömək etmək Respublika Veteranlar Təşkilatının Nizamnamə ilə boynuna götürdüyü əsas vəzifələrindən biridir.

Artıq 23 ilə yaxındır ki, ərazilərimiz Ermənistan hərbi birləşmələrinin işğalı altındadır. Zəbt olunmuş Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayonun düşmən işğalından azad edilməsi hər bir azərbaycanlının Vətən qarşısındakı müqəddəs borcudur. İndi Ermənistan ərazisindəki adları məqsədli şəkildə dəyişdirilərək "erməniləşdirilən" yurd yerlərində və işğal altında qalan ərazilərimizdə ata-babalarımızın narahat ruhları dolaşır, qan yaddaşımız qarşısıalınmaz bir qüvvətək bizləri o yerlərə qayıtmağa, sönən ocaqlarımızı yenidən alovlandırmağa haraylayır.

"Vətənpərvərlik" məhfumu öz məzmununa görə çoxşaxəlidir və onu heç bir sözlə əvəz etmək mümkün deyil. Bu hiss uşaqlarda tədricən formalaşır. İnsan dünyanı dərk etdikcə vətəninə, torpağına məhəbbəti, sevgisi artır, vətənpərvərlik hissləri güclənir. Mütəxəssislərin fikrincə, mənəvi dəyərlərin, vətənpərvərlik hisslərinin əsası məktəbəqədər tərbiyə müəssisələrində, orta məktəblərdə qoyulur. Tədqiqatçılar hesab edirlər ki, milli şüur millətə, xalqa aid xüsusiyyətləri hər hansı bir fərdin özündə cəmləşdirmək bacarığıdır. Burada vicdan, milli mənlik mühüm əhəmiyyət kəsb edir. Danılmaz faktdır ki, vicdanı olan hər bir vətəndaş öz doğulduğu torpağı sevir. Əlbəttə, milli şüurun formalaşmasında xalqın tarixi, onun görkəmli mütəfəkkir və şəxsiyyətləri güclü təsirə malikdir.

Tədqiqatçıların fikrincə, milli mənlik şüuru olan hər bir kəs mənsub olduğu xalqın, vətəndaşı olduğu ölkənin təəssübünü çəkir. Hər bir insan mənsub olduğu xalqın milli əlamətlərini öz şüurunda əks etdirməklə yanaşı, tarixi keçmişi ilə fəxr edir. Məhz milli mənlik şüuru sayəsində hər bir fərd tarixin inkişaf xüsusiyyətlərini dolğunluğu ilə dərk edir.Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Məhz buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılır. Əbəs yerə deyilmir ki, hər bir millətin gələcəyi uşaqlara və gənclərə bağlıdır.

Təəssüf ki, əksər yeniyetmə və gənclər Qarabağ müharibəsi, onun nəticələri, xüsusilə soydaşlarımızın qəhrəmanlıqları barədə kifayət qədər məlumatlı deyillər. Xalqın bütün zümrələri, xüsusilə yeniyetmə və gənclər dədə-babalarının döyüş yolundan tam məlumatlı olmalı, öz qəhrəmanlarını tanımalıdırlar. Bu kontekstdə Qarabağ savaşında azərbaycanlıların keçdiyi şərəfli döyüş yolunun yeniyetmə və gənclər arasında geniş təbliğ edilməsi, onların vətənpərvər, dövlətinə, torpağına bağlı insanlar kimi yetişmələrinə nail olunması mühüm əhəmiyyət kəsb edir və layihə bu məqsədin həyata keçirilməsinə xidmət edir.

Adı çəkilən layihənin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən 02 sentyabr 2016-cı il tarixdə Şəki şəhərində, 07 oktyabr 2016- cı il tarixdə Masallı rayonunda, 19 oktyabr 2016- cı il tarixdə Xaçmaz rayonunda, 02 noyabr 2016-cı il tarixdə Şirvan şəhərində, 08 noyabr 2016-cı il tarixdə Bakı şəhərində seminar-müşavirələr keçirilmişdir.



Bəli! Layihə çərçivəsində keçirilən hər tədbirin sonunda öz-özümə deyirdim: Nə yaxşı ki Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev belə bir layihə təklifi ilə çıxış etdi. Layihənin adında da olduğu kimi Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını daha yaxından tanıdıq və tanıtmağa çalışdıq. Ekspertlərimiz vətənpərvərlik mövzusunda müxtəlif mövzularla çıxış etdilər, tədbirlərin sonunda Azərbaycanın Milli qəhrəmanlarına həsr olunmuş filmlər nümayiş etdirildi və bir neçə şəhid ailəsinə ərzaq yardımı edildi.

Tədbirlərimizdə yeniyetmələr, gənclər, Böyük Vətən müharibəsinin iştirakçıları, Qarabağ veteranları ilə yanaşı həm də Vətən uğrunda qurban vermiş şəhid anaları iştirak edirdilər. Qeyd edilən insanların birgə bölüşdüyü bu tədbirlər nəticə etibarilə gənclərin vətənpərvər ruhda tərbiyə edilməsində mühüm əhəmiyyət kəsb edir. Tədbirlərdə iştirak edən əməkdaşlar tədbiri göz yaşı, qəhər içində sona vururdular. Lakin o qəhərin içində Vətən torpağını düşməndən azad etmək istəyi, bayrağmızın Şuşada dalğalanmasını görmək arzusu daha da artırdı. Layihə çərçivəsində yeniyetmələrə, gənclərə izah etməyə çalışdıq ki, Vətəni qorumaq, Vətəni sevmək, ümumiyyətlə vətənpərvər olmaq yalnız silaha sarılıb vətəni qorumaq kimi başa düşülməməlidir. Bu hiss öz dövlətinin tərəqqisi üçün can yandırmaq, doğma xalqının tarixi və mədəniyyəti ilə fəxr etmək, vətənin rifahı naminə əlindən gələni etmək deməkdir. Hər bir məktəbli, yeniyetmə, gənc öz savadı ilə, təhsili, yiyələndiyi ixtisası ilə Vətəni qorumalı, hər bir addımında Vətəni fikirləşməlidir. Qəhrəmanlar unudulmamalıdır! Hər bir gənc öz xalqının qəhrəmanlarını tanımalı və özündən sonrakı nəslə tanıtdırmalıdır.

Sonda sinələrinə çəkilmiş dağın qarşısında dağ kimi dayanan şəhid analarının qarşısında baş əyərək demək istəyirəm: Əziz şəhid anaları! Hər kəs oğul böyüdə bilər, lakin hər ana Vətən uğrunda ölməyə hazır olan vətənpərvər övlad böyüdə bilməz. Şəhid verən analar, siz özünüz qəhrəmansınız! Əmin olun ki, sizin şəhid, qəhrəman övladlarınız tarix boyu xalqımızın qəlbində yaşayacaq, daim şərəf və qeyrət simvolu kimi xatırlanacaq, gənc nəslə nümunə kimi təqdim ediləcəklər. Çünki onlar ana Vətənin azadlığı, doğma diyarın istiqlalı, müqəddəs torpağın şərəfi, qeyrəti, namusu yolunda canlarını qurban veriblər.

Allah şəhidlərimizə rəhmət eləsin!

***VÜSALƏ CƏFƏRLİ***

AZƏRBAYCAN VETERANI

# Azərbaycan qəhrəmanlar diyarıdır



Azərbaycan xalqı tarixinin bütün mərhələlərində qəhrəmanlar yetişdirib. Vətən dara düşəndə onun xilası üçün göz qırpmadan özünü fəda etməyə qadir oğullar, qızlar Azərbaycanın şərəfli tarixini yazıblar. Salur Qazanı, Cavanşiri, Babəki, Şah İsmayılı, Abbas Mirzəsi olub bu xalqın... Onların qılıncı qınından çıxanda düşmən pərən-pərən düşüb, ərənlərin göstərdikləri qəhrəmanlıqlar tarixin yaddaşına əbədi yazılıb.

Xalqın qəhrəmanlığını sübuta yetirən ən mühüm amillərdən biri onun şifahi xalq yaradıcılığıdır. Qəhrəmanlar yetişdirən xalq onları təbliğ, vəsf edən dastanlar, rəvayətlər, hekayətlər də yaradır. Azərbaycan xalqının yaratdığı dastanlar min illərlə onun qəhrəmanlıq tarixinə yol yoldaşı olublar. “Kitabi Dədə Qorqud”, “Koroğlu”, “Qaçaq Nəbi”, “Qaçaq Kərəm”, neçə-neçə başqa dastanlarımız, rəvayət və hekayətlər Azərbaycan xalqının həm qəhrəmanlar yetişdirdiyini, həm də bu qəhrəmanları yaşatmaq qüdrətinə malik olduğunu göstərir.

Xalqın qəhrəmanlığının digər mühüm amillərindən biri, bəlkə də birincisi tarix səhnəsinə çıxdığı dövr ərzində yaratdığı dövlətlərdir. Azərbaycan xalqının 3 min ildən artıq dövlətçilik tarixi onun nəyə qadir olduğunu tam şəkildə ortaya qoyur. Azərbaycan ərazisində müxtəlif adlarla mövcud olmuş ilk dövlətlərdən tutmuş Səfəvi dövləti kimi qüdrətli bir imperiyaya qədər ikişaf yolu keçmiş dövlətçilik taiximiz həqiqi qürur mənbəyimizdir. Həmin dövlətlərin xalqımızın qəhrəmanlıq tarixində qoyduğu silinməz izlər həm də azərbaycanlıların dövlətçilik təfəkkürünə malik olmasının əyani göstəricisidir.

Azərbaycan xalqı müstəqil dövlətlər qurduğu kimi, onu qorumağı, yaşatmağı da bacarıb. Güclü imperiyaların təsiri ilə dövlətçiliyini itirəndə isə onun yenidən əldə olunması, öz azadlığına qovuşması üçün inamla mübarizə aparıb. Rus, eləcə də sovet imperiyalarına qarşı aparılan mübarizələr, xalq üsyanları bu tarixin qiymətli səhifələridir. Xalqımızın dövlətçilik tarixinin zirvələrindən biri də Şərqdə ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-20-ci illərdir.

Napoleon vaxtilə “Türkləri öldürmək olar, ancaq məğlub etmək olmaz” demişdir. Bu bütün türklərə, o cümlədən oğuz türkü olan azərbaycanlılara aiddir. Tarix bu fikrin təsadüfi söylənmədiyini dəfələrlə sübuta yetirib.

Atatürkün oxuyub heyran qaldığı və dərhal ölkədəki məktəblərin, xüsusilə hərbi məktəblərin proqramına salınmasını əmr etdiyi “Ağ zanbaqlar ölkəsi” kitabının müəllifi Qriqori Petrovun belə bir fikri var: “Qəhrəmanlar xalqı həyəcanlandırır və alovlandırır. Ancaq onu millətindən aldığı alov və həyəcanla yandıra bilər”.

Qəhrəmanlar hər bir xalqın, millətin ən passioanar hissəsi olmaqla, onun yaşamaq, var olmaq haqqını dünya, başqa xalqlar və millətlər qarşısında canı, qanı bahasına sübuta yetirən insanlardır. Qəhrəmanları daim diri tutan onların Vətən qarşısındakı bu əvəzsiz xidmətləri, həyatlarını xalqının, millətinin sabahı yolunda qurban verməyə qadir olmalarıdır.

Azərbaycan xalqının yetirdiyi qəhrəmanlar bu gün də torpaq, Vətən uğrunda canlarından keçir, babaların döyüş, qalibiyyət ruhunu yaşadırlar. “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq” layihəsinə həyata keçirilməsində başlıca məqsəd bu gün tariximizin yeni şərəfli səhifələrini yazan Qarabağ qəhrəmanlarını xalqa yaxından tanıtmaqdır.

Zorla cəlb olunduğu müharibə Azərbaycana, onun xalqına dəhşətli bəlalar gətirib. Qarabağ uğrunda döyüşlərdə 20 mindən artıq soydaşımız şəhid olmuş, minlərlə insan itkin düşmüş, bundan qat-qat artığı yaralanmış, yaxud əlil olmuşdur. "Böyük Ermənistan" yaratmaq xülyasında olan ermənilərin təcavüzü nəticəsində Azərbaycanın 20 faizdən artıq ərazisi işğal edilmiş, 1 milyona yaxın insan daimi yaşayış yerini tərk etməklə, qaçqına və məcburi köçkünə çevrilmişdir. Vətən, torpaq uğrunda gedən vuruşmalarda düşmənə layiqincə sinə gərən, ata-babalarının döyüş ruhunu yaşadan azərbaycanlılardan 217 nəfər Milli Qəhrəman adına layiq görülmüş, yüzlərlə şəxs orden və medallarla təltif olunmuşdur. Onların nəsillərə örnək həyatı və şərəfli döyüş yolu xüsusilə yeniyetmə və gənclərə çatdırılmalı, lazımınca təbliğ olunmalıdır. Bu işin son dərəcə mühüm əhəmiyyət kəsb etdiyini cari ilin aprel ayının əvvəllərində erməni hərbi birləşmələrinin atəşkəs rejimini mütəmadi pozmasına və törətdikləri ardıcıl təxribatlara ordumuzun tutarlı cavab tədbirləri də aydın göstərdi. Torpaqlarımızın və cəbhəyanı ərazilərdə yaşayan mülki əhalinin müdafiəsinə yönəlmiş bu döyüşlərdə neçə əsgər və zabitimiz şəhidlik zirvəsinə yüksəlməklə Vətən uğrunda canlarından keçməyə hazır olduqlarını bir daha nümayiş etdirdilər. Bu qısamüddətli döyüşlər Azərbaycan əsgərinin döyüş ruhunun, hazırlıq səviyyəsinin necə yüksək olduğu ilə yanaşı, onun həqiqi vətənpərvərliyinin də göstəricisi oldu. Qarabağ qəhrəmanlarının şərəfli sırasına yeni adlar yazıldı. Bu Azərbaycan dövlətinin vaxtında həyata keçirdiyi hərtərəfli, kompleks tədbirlərlə birgə, həm də yeniyetmə və gənclər arasında aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsi idi. Minlərlə gənc, orta yaşlı, hətta ahıl insanın israrla cəbhəyə can atması da azərbaycanlıların vətənpərvər, qəhrəmanlığa qadir xalq olmalarını bir daha sübüt etdi.

Zəbt olunmuş Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonun düşmən işğalından azad edilməsi hər bir azərbaycanlının Vətən qarşısındakı müqəddəs borcudur. İndi Ermənistan ərazisindəki adları məqsədli şəkildə dəyişdirərək "erməniləşdirilən" yurd yerlərində və işğal altında qalan ərazilərimizdə ata-babalarımızın narahat ruhları dolaşır, qan yaddaşımız qarşısı alınmaz bir qüvvətək bizləri o yerlərə qayıtmağa, sönən ocaqlarımızı yenidən alovlandırmağa haraylayır.

Bunun üçün xalqın bütün zümrələri, xüsusilə yeniyetmə və gənclər dədə-babalarının döyüş yolundan tam məlumatlı olmalı, öz qəhrəmanlarını tanımalıdırlar. Bu kontekstdə Qarabağ savaşında azərbaycanlıların keçdiyi şərəfli döyüş yolunun yeniyetmə və gənclər arasında geniş təbliğ edilməsi, onların vətənpərvər, dövlətinə, torpağına bağlı insanlar kimi yetişmələrinə nail olunması mühüm əhəmiyyət kəsb edir.

Həyatı boyu Vətən naminə çalışan, milli mənafeni hər cür şanşöhrətdən, imtiyazdan, var-dövlətdən üstün tutan, torpaq uğrunda canından keçən tarixi şəxsiyyətlərin, qəhrəmanların adı daim əziz tutulmalı, xatirəsi əbədiləşdirilməlidir. Heç kəs unudulmamalı, heç nə yaddan çıxmamalıdır. Bu insanların nəsillərə nümunə olan şərəfli həyatı, ömür yolu layiqincə qiymətləndirilməli və daim yaşadılmalıdır. Onlar xalqımızın qızıl fondu, onun kimliyini dünyaya tanıdan seçilmiş övladlarıdır. Onların adı və əməlləri əsrlərlə yaşayacaqdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, müstəqilliyinin qorunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən milli qəhrəmanlarımızın əziz xatirəsinə həsr edilən tədbirlərin gənclərin hərbi vətənpərvərlik tərbiyəsində böyük rolu var.

*LƏTİF BABAYAEV*

# Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir

Məlum olduğu kimi, cari il aprel ayının 2-nə keçən gecə erməni silahlı bölmələrinin atəşkəs rejimini pozması nəticəsində cəbhədə vəziyyət gərginləşməyə başlamışdı. Azərbaycan Silahlı Qüvvələrinin cavab tədbirlər nəticəsində cəbhə boyu ağır itkilərə məruz qalan ermənilər uğursuzluqlarının əvəzini mülki əhaliyə ziyan vurmaqla çıxmağa çalışırdı. Cəbhə boyu yaşayış məntəqələrimizin düşmən tərəfindən intensiv atəşə tutulması fərdi yaşayış evlərinin dağılması, həmin ərazidə yaşayan əhaliyə ciddi ziyan vurulmasına gətirib çıxarmışdır.

Ancaq buna baxmayaraq, ermənilər tamamilə əks-nəticəyə nail oldular. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sürətli əks-həmləsi ilə düşmənin müqaviməti tamamilə qırıldı. Güclü əks-hücum tədbirləri ilə qısa müddətdə erməni hərbi birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərindən yarıldı, strateji əhəmiyyətə, daha əlverişli mövqeyə malik bir neçə yüksəklik və yaşayış məntəqəsi düşməndən tam azad olundu.

Əsəs məsələ sayılan mülki əhalinin müdafiəsinin təmin olunması məqsədilə Silahlı Qüvvələrimizin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edildi. Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yardada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi düşmən qüvvələrindən tamamilə təmizləndi. Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli-Cəbrayıl rayonları istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli “Lələ Təpə” adlandırılan yüksəklik də bölmələrimizin nəzarəti altına alınmışdır.

Dəqiq cavab atəşləri, döyüş əməliyyatlarının uğurla başa çatdırılması ilə düşmənin yüzlərlə hərbi qulluqçusu, o cümlədən general və polkovnik rütbəli zabitləri, 21 zirehli texnikası, o cümlədən ermənilərə məxsus 6 ədəd tank, 15-dək artilleriya qurğusu məhv edildi, şəxsi heyətdən 300-ə yaxın yaralandı, 2 komanda-qərargah məntəqəsi darmadağın olundu. Ermənilərin möhkəmləndirilmiş mühəndis qurğuları məhv edildi. Bundan əlavə, 10 km ərazidə irəliləməyə nail olan ordumuz zəbt edilmiş torpaqlarımızın 2000 hektar erməni tapdağından azad edilərək, nəzarət altına aldı.




Böyük itkilər verən erməni hərbiçiləri vahimə içində silah-sursatlarını ataraq öz mövqelərindən qaçdı. Panikada olan ermənilər işğal altında saxladıqları digər ərazilərdən, hətta Xankəndindən qaçırdılar.

Cəbhə xəttində 4 günlük müharibə Azərbaycanın dövlət, xalq olaraq Qarabağın və digər ərazilərinin işğalı ilə barışmadığını və heç vaxt barışmayacağını göstərdi. 22 illik atəşkəs dövründə ilk dəfə dünyaya, işğalçıya, onun havadarlarına Azərbaycan əsgərinin gücü, qələbə əzmi nümayiş etdirildi. Dünya gördü ki, bu millət, onun dövləti və ordusu birgədir və torpaqlarının azadlığı yolunda hər şeyə hazır və qadirdir. Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında çıxış edən möhtərəm prezident də bu barədə hərtərəfli danışmış, haqlı olaraq bildirmişdi ki, düşmən öz təxribatlarından əl çəkməsə, Azərbaycanın növbəti zərbələri daha sarsıdıcı və həlledici olacaqdır. Azərbaycan Respublikasının Prezidenti atəşkəsə bir şərtlə razılıq verildiyini bəyan elədi: “İşğalçı tərəf bundan istifadə eləməsin və ərazilərimizdən rədd olub getsin!”

Ali Baş Komandan həmçinin vurğulamışdır ki: “Bir daha demək istəyirəm ki, aprelin ikisi Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır. Azərbaycan Ordusu, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bu böyük Qələbə münasibəti ilə təbrik edirəm”.

Həmin 4 gün ərzində baş verənlər bir sıra başqa həqiqətlərə də işıq saldı. Azərbaycanın dünyaya çatdırdığı mesajlardan birincisi, Dağlıq Qarabağa dair dünya birliyinin iradəsini əks etdirən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin təxirəsalınmadan icra olunması ilə bağlı oldu. Həm bu qətnamələrin, həm də nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrinin qeyri-şərtsiz yerinə yetirilməsinin, ərazilərimiz erməni işğalından azad olunmasının vaxtı çoxdan çatmışdır. Digər mesaj Minsk Qrupu həmsədrlərinə ünvanlanmışdı. Artıq bu qrupun ənənəvi şəkildə işğalçı ilə işğala məruz qalan tərəfə eyni gözlə baxmasına son verilməlidir. Təcavüzkarın Minsk Qrupu həmsədrləri tərəfindən layiq olduğu münasibəti görməsinin vaxtı çatıb və nə qədər ki, bu münasibət göstərilməyib, Azərbaycanın haqlı mövqeyi birmənalı dəstəklənməyib, biz tələblərimizdə israrla davam etməliyik.

Həmin hadisələr göstərdi ki, öz xalqının etimadını tamamilə itirmiş Ermənistan kriminal rejimi ölkədəki dözülməz vəziyyətdən, əhalinin narazılığından diqqəti yayındırmaq məqsədilə mütəmadi olaraq cəbhə xəttində təxribatlar törətməkdə maraqlıdır. Bunu yaxşı bilən Azərbaycan əsgəri öz postunda daim sayıq dayanmışdır.

Baş verən hadisələrlə bağlı Respublika Veteranlar Təşkilatı ölkənin ictimai-siyasi təşkilatları arasında ilk rəsmi bəyanat yayan təşkilat oldu. Həmin bəyanatda Azərbaycanın 1 milyon 300 minlik veteranlar ordusununun mövqeyi əksini tapmışdı. Orada biz veteranlar ordusunun düşmən işğalı altındakı torpaqlarımızı hər an azad etmək üçün Ali Baş Komandanın əmri ilə əsgərlərimizlə bir sırada durmağa həmişə hazır olduğu inamla bəyan edilmişdi. Biz Ermənistan tərəfinin atəşkəs rejimini mütəmadi pozmasının dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən pislənməsini, ermənilərin Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etmələrini tələb etmişdik. Əkshalda Ermənistanın dövlət rəhbərlərinə qarşı ən sərt beynəlxaiq sanksiyalar tətbiq edilməli olduğu bildirilmişdi.

Bu hadisələr göstərdi ki, ölkə gəncləri öz Vətəni, torpağı uğrunda canından keçməyə belə hazırdır. Biz bunu gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməsinin nəticəsi sayırıq. Son hadisələrdə ümumən cəmiyyətin orduya, Azərbaycan əsgərinə göstərdiyi dəstəyin ölkədə vətənpərvərlik hisslərinin doğrudan da, güclü olduğunu bir daha nümayiş etdirdi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə xüsusi fərqlənən bir qrup Azərbaycan hərbçisi 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə mükafatlandırıldılar. Onlardan 3 nəfəri ən yüksək fəxri ada, “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görüldü, digər hərbçilərimiz “Azərbaycan Bayrağı” və “Vətənə xidmətə görə” ordenləri, “Vətən uğrunda”, “İgidliyə görə” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif olundular.

Vətən qarşısındakı xidmətlərinə görə, Azərbaycan Respublikasının Milli Qəhrəmanı fəxri adı ilə təltif edilən Qəhrəmanların adları bu gün Vətənin hər yerində iftixarla çəkilir. Vətənin, xalqın belə qəhrəman oğullarının sayı isə minlər, on minlərlədir. Bizim qələbəyə olan inamımız da onların mərdliyinə, igidliyinə, dönməzliyinə bağlıdır. Allahdan şəhidlərimizə rəhmət, bu gün Vətəni qanı və canı bahasına qoruyan oğullarımıza isə möhkəm cansağlığı, xalqımıza qələbə sevinci yaşatmağı arzu edirik.

*ADİL HAQVERDİYEV*

AZƏRBAYCAN VETERANI

# Qəhrəmanlar unudulmur

Qəhrəmanlar heç vaxt unudulmur...Xalqımız ana Vətənin azadlığı, doğma diyarın istiqlalı, müqəddəs torpağın şərəfi, qeyrəti, namusu yolunda canını qurban verənləri həmişə qəlbində yaşadır, onları şərəf və qeyrət simvolu kimi xatırlayır, gənc nəslə nümunə kimi təqdim edir.

Son dövlərin Qarabağ savaşı göstərdi ki, Azərbaycan, doğrudan da, qəhrəmanlar diyarı, igidlər və cəsurlar məskənidir. Xalqımızın igid oğulları, mərd qızları heç vaxt Vətəni darda qoymamış, lazım gələndə doğma od-ocaq, müqəddəs Vətən torpağı uğrunda canlarından da keçmişlər.

Azərbaycanın elə bir bölgəsi, kəndi tapılmaz ki, orada şəhid məzarı olmasın. Onların hamısını eyni məqsəd, eyni amal birləşdirirdi: Azərbaycanın suverenliyi, dövlətçiliyi və torpaqlarımızın bütövlüyü...

Böyük dövlət xadimi Heydər Əliyev gənc nəslin vətənpərvər ruhda böyüməsi istiqamətində mühüm addımlar atıb, Qarabağda döyüşlərdə şücaət göstərmiş qəhrəman Vətən övladlarını qiymətləndirib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Prezident İlham Əliyev çıxışlarında gənc nəslin vətənpərvər ruhda böyüməsinin xüsusi diqqət mərkəzində saxlanılmalı olduğunu vurğulayır.




Azərbaycan Respublikasının ən yüksək fərqlənmə dərəcəsi "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adıdır. Bu ad ölkəmizin müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir. Cəlb olunduğumuz Qarabağ savaşı yüzlərlə milli qəhrəman yetişdirmişdir.

İgidlik göstərən, vətən üçün şirin canından keçən qeyrətli Azərbaycan övladları ilə bütün xalqımız qürur duyur. Belə qəhrəmanların təbliğ olunması insanların, əsasən, gənc nəslin vətənpərvər ruhda tərbiyəsində əvəzsiz rol oynayır. Əsrlər boyu başı bəlalar çəkmiş, torpaqları bölünmüş Azərbaycan bu gün müstəqil, suveren dövlətdir. Vətəni sevən hər bir insan müstəqilliyin nə olduğunu dərk etməli, onu qorumağı bacarmalıdır. Bütün insanlara, o cümlədən gənclərə itirilmiş torpaqlarımız haqqında, şəhidlərimiz barəsində danışmaq, onlara vətənə sədaqət hissini aşılamaq lazımdır. Vətən borcu, vətən sevgisi hər kəsin ürəyində kök salmalıdır.

Qürur hissi ilə deyə bilərik ki, bu gün Azərbaycan güclü orduya sahibdir. Vətənimizin müdafiəsində dayanan igid oğullarımızın vəzifəsi çətin olduğu qədər də müqəddəsdir. Milli ordumuzda on minlərlə gənc vətənə sədaqətlə xidmət edir. Bütün bunlar vətənpərvər gəncliyin yetişməsindən, onların ölkəmizə olan dərin məhəbbətindən xəbər verir.

Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlarımızla fəxr edirik və onlar qəhrəmanlıqları ilə hər bir zaman yaddaşlarda yaşayacaqlar.

**İRADƏ İBRAHİMOVA**

# Torpaq - əgər uğrunda ölən varsa, Vətəndir!

***"Vətən yolunda şəhid olanlar ölmürlər, xalqın qəlbində, ürəyində əbədi yaşayırlar... Biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Onlar bizim millətimizin iftixarıdır"...***

***H.Əliyev***

Vətən yolunda ölüm mərd üçün səadətdir - deyiblər. Vətən yolunda canlarını qurban verənlər ölmürlər, xalqın qəlbində, ömürlük yaşayırlar. Biz onların qəhrəmanlığı ilə fəxr edirik. Onlar bizim millətimizin fəxridir, qürür mənbəyidir. Qəhrəmanlarımızı tanıyaq və tanıdaq" layihəsi çərçivəsində biz bunun bir daha şahidi olduq, xalqımız igid oğullarının xatirəsini əbədiləşdirmək üçün əlindən gələni əsirgəmir. Dövlətimiz onların Vətən uğrundakı qəhrəmanlıqlarını yüksək qiymətləndirərək onları "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görür.

Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar. Vətən və millət naminə düşmənlə ölüm-dirim mübarizəsində minlərlə mərd oğullarımız, qızlarımız şəhidlik zirvəsinə ucaldılar. Onların həyatı, qəhrəmanlığı bütün xalqımız xüsusilə də, gənclərimiz üçün örnəkdir. Əbəs yerə demirlər ki,

*Bayraqları bayraq edən- üstündəki qandır!*
*Torpaq- əgər uğrunda ölən varsa, Vətəndir!*




Əgər bu gün şanlı bayrağımız məğrurcasına başımızın üstündə dalğalanırsa, biz şəhidlərimizə borcluyuq, minnətdarıq və onların hər birini dərin hörmətlə anırıq. Onlar bizim həm nisgilimiz, həm kədərimiz, ürək ağrımız, həm də fəxrimiz və ölməzliyimizdir. Şəhidlər paytaxtımızın Dağüstü parkını möhtəşəm, əzəmətli, müqəddəs məzara - Şəhidlər xiyabanına çevirdilər. Xiyabla irəlilədikcə qəhrəmanların adlarını oxuyuruq:

Əlif Hacıyev, Valeh Müslümov, Aqil Quliyev,Yunis Əliyev, Şikar Şikarov, Cavanşir Rəhimov, Salatın Əsgərova, Səfa Axundov və daha neçə- neçə igidlər... O cümlədən aprel döyüşlərindən Samid İmanov, Murad Mirzəyev, Süleymanov Vüqar, Mirzə Novruzovu xatırlamasaq olmaz...Bu seçilmiş övladlar əməlləri ilə yüzillərlə yaşayacaqlar...

Müstəqil Azərbaycanımızın torpaqlarına göz dikən düşmənlər bilməlidirlər ki, xalqımızın igid övladları qüdrətli milli ordumuzla birlikdə ayağa qalxıb, öz torpaqlarını azad edəcək, şəhidlərin müqəddəs ruhları qarşısında öz vicdan borclarını ödəyərək zəfər marşını çalacaqlar. Azərbaycan bizim Vətənimizdir, biz gənclər, bu torpağın qızıyıq, oğluyuq. Və hər an canımızı da, qanımızı da, Vətənimizə fəda etməyə hazırıq.

***Torpağını geyinərəm əynimə,***
***Kür, Arazı axıdaram könlümə,***
***Xəzərimi məlhəm edib gələrəm,***
***Ey Vətənim dəyən olsa könlünə!***

*SƏİDƏ ABDULLAYEVA*

# Xaçmazın ölməz şəhidləri



Dünyanın ən qədim və mədəni xalqlarından olan Azərbaycan xalqı, özünün tarixi, maddi-mədəni abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə həmişə fəxr etdiyi kimi, onun tarixini yaradan şəxsiyyətlərə, Vətənin azadlığı naminə canını fəda edən oğul və qızlarımızla da haqlı olaraq öyünmüşdür. Xalqımız Vətəni yadelli düşmənlərdən qoruyan, düzgün yol göstərən Varaz oğlu Cavanşirlə, Uzun Həsənlə, Şah İsmayıl Xətai ilə, doğma Vətəni uğrunda canından keçən, ölümün gözünə dik baxan Babəklə, əfsanəyə çevrilən Koroğlu ilə və daha neçə-neçə igid qəhrəmanları ilə həmişə fəxr etmiş, onları əbədi xatirə kimi qəlbində yaşatmışdır. Son dövlərin Qarabağ savaşı göstərdi ki, Azərbaycan, doğrudan da, qəhrəmanlar diyarı, igidlər və cəsurlar məskənidir. Xalqımızın igid oğulları, mərd qızları heç vaxt Vətəni darda qoymamış, lazım gələndə doğma od-ocaq, müqəddəs Vətən torpağı uğrunda canlarından da keçmişlər. Xaçmaz rayonu tarixən igidlər, qəhrəmanlar yurdu olmuş, daim öz igidləri qəhrəmanları ilə seçilmişdir. Qədim zamanlardan yadellilərə boyun əyməmiş, mərdlikləri qoçaqlıqları ilə seçilməyi bacarmışdırlar. Tarixə nəzər saldıqda xaçmazlıların necə cəsur və igid olduqlarını görmək olar. XX əsrə baxdıqda Xaçamazlıların həm İkinci Dünya müharibəsində, həmdə Qarabağ müharibəsində igidlikləri ilə fərqləndiklərini görmək olar. Qeyd edim ki, Xaçmazdan Böyük Vətən müharibəsinə 8739 nəfər getmişdir. Onların təqribən yarısı həlak olmuş və ya itkin düşmüşdür. Hal-hazırda ikinci dünya müharibəsinin iştirakçılarından 6 nəfəri yaşayırlar.

Tarix təkralanır... Alman faşizmindən daha qəddar olan erməni şovinizmi erməni faşizminin XX əsr də xalqımızın başına gətirdiyi müsibətlərin hər birimiz şahidi olduq. Nəinki biz bütün dünya bunu gördü. Erməni qəsbkarlarının törətdikləri iyrənc, insanlığa sığmayan əməlləri insanın qəlbini sarsıdır. Ermənini insan belə adlandırmağa imkan vermir. Bütün bu proseslərin fonunda azərbaycan xalqı damarında Azərbaycanlı qanı axan namuslu oğul və qızlarımız düşmənə mərdliklə sinə gəlməyi bacarmışdır.

Digər soydaşlarımız kimi xaçmazlılarda Qarabağ savaşında iğidlik göstərmiş, Vətənin dar günündə onunla birgə olmağı son damla qanlarına qədər bacarmışdılar. Azərbaycan Respublikasının müdafiəsi uğrunda Qarabağ müharibəsində Xaçmaz rayonundan 209 nəfər şəhid olmuşdur. Onlardan üç nəfəri Cari ilin aprel ayında düşmən Təxribatının qarşısı alan zaman şəhid olmuşdur. Qarabağ uğrunda işğalçı Ermənistan Respublikası apardığımız mübarizədə siz xaçmazlılardan 182 nəfəri mütəlif dərəcəli əlil olmuşdur. Hal-hazırda rayonda 476 nəfər Qarabağ müharibəsi veteranı vardır, onlar bu gündə lazım gələrsə yenidən döyüşlərə atılmağa, şəhidlərimizin qisasın almağa, işğal altında olan torpaqlarımızı düşmən tapdağından xilas etməyə hazırdılar.

Ümid edirik ki, tezliklə torpaqlarımız işğaldan azad olunacaq, Milli Qəhrəmanımız Yavər Şahbazov və onun kimi şəhidlərimizinin qanı yerdə qalmayacaqdır. Allah şəhidlərimizə rəhmət etsin.

***NƏBİ HACIYEV***

## *“Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!” layihəsi çərçivəsində səsləndirilən şeirlərdən bir neçəsi*

### MÜBARİZƏ OXŞAMAQ İSTƏYİRƏM, AY ALLAH!



Hansı ata istəməz oğlu ona oxşasın?
Hansı ana istəməz oğlu ona oxşasın?
Hansı oğul istəməz qəhramana oxşasın?
Mübarizə oxşamaq istəyirəm, ay Allah!

Mən bu ad qarşısında qürurla əyirəm baş,
Qəlblər kədərlənməsin,gözlər axıtmasın yaş,
Hələ bitməyib dava, hələ bitməyib savaş,
Mübarizə oxşamaq istəyirəm, ay Allah!

Mübariz doğan ana, sil gözünün yaşını,
Sənin oğlun qorudu torpağın hər daşını,
Yeriyən düşmən üstə əzən düşmən başını,
Mübarizə oxşamaq istəyirəm, ay Allah!

O cavabsız qoymadı vətənin fəryadını,
Vətən unutmayacaq qeyrətli övladını,
Vətənin tarixinə qanla yazan adını,
Mübarizə oxşamaq istəyirəm, ay Allah!

Mübariztək yaşamaq istəirəm, ay Allah!
Şəhidliyə ucalmaq istəyirəm, ay Allah!
Şəhid adı daşımaq istəyirəm, ay Allah!
Mübarizə oxşamaq istəyirəm, ay Allah!
Mübarizə oxşamaq istəyirəm, ay Allah!

Razim Allahverdiyev,
Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin tələbəsi

# Vətən uğrunda

Qıyaram şövq ilə bu cana vətən uğrunda
Hazıram ölməyə mərdana vətən uğrunda
Əl qoyub Qurana öpdüm vətənin bayrağın,
İçmişəm andımı sübhana vətən uğrunda
Başlasa hərb ana torpaqlarımın üstündə,
Girərərm o anda meydana vətən uğrunda
Ana torpağıma düşmənlər ayağın bassa,
Edərəm onları qərq qana vətən uğrunda
Nə qədər var şəhidi bu elin, bu torpağın,
Döndülər hər biri dastana vətən uğrunda
Qorumaqçun vətəni Azərbaycan anası,
Verib aslan südü Telmana vətən uğrunda!
Qarabağ müharibəsi veteranı

***TELMAN ABBASOV***

# Ya gazi ol ya şehit

Haydi yavrum! Ben seni bugün için doğurdum;
Hamurunu yiğitlik duygusuyla yoğurdum.
Türk evladı odur ki, yurdu olan toprağı
Ana ırzı bilerek yad ayağı bastırmaz;
Bir yabancı bayrağı
Ezan sesi duyulan hiçbir yere astırmaz.
Git evladım, yıllarca ben oğulsuz kalayım;
Şu yaralı bağrıma kara taşlar çalayım!
Haydi oğlum haydi git,
Ya gazi ol, ya şehit...
Haydi yavrum, kendine sen de “yiğit er” dedir,
Büyüdüğün gaziler ocağına can getir.
O cenkleri kazan ki, senin büyük Türk adın
Yedi iklim, dört bucak içersine ün salsın.
Beş yüz yıllık edadın
Kabirlerde titreyen kemikleri öç alsın.
Git evledım, yıllarca ben oğulsuz kalayım,
Şu yaralı bağrıma kara taşlar çalayım.
Haydi oğlum, haydi git,
Ya gazi ol, ya şehit...
Haydi yavrum, bugün de dertli ninen ağlasın,
Ayrılığın oduyla yüreğini dağlasın;
O yaşları saçsın ki, senin arslan göğsünde
Benim kanlı gözyaşım düşman için kin olsun,



Kara yerin yüzünde
Ayağının bastığı bağlar, beller leş dolsun.
Git evladım yıllarca ben oğulsuz kalayım
Şu yaralı bağrıma kara taşlar çalayım.
Haydi oğlum, haydi git,
Ya gazi ol, ya şehit.

***Mehmet Emin Yurdakul***

# “Qəhrəmanlarımızı tanıyaq və tanıdaq” vətənpərvərlik mövzusunda tədbir

Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin təşkilatçılığı ilə Bakıda 100 saylı tam orta məktəbdə vətənpərvərlik mövzusunda tədbir keçirildi.



Tədbirdən öncə məktəbdə "Milli Qəhrəmanlar" guşəsinin açılış mərasimi baş tutdu. Məktəbin direktoru Gülnarə Məmmədova xanım çıxış edərək, bu tədbirin məktəblilərdə hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi, gənclərin çağırışaqədərki hazırlığının yüksəldilməsi məqsədilə təşkil olunduğunu vurğuladı. 214 Milli Qəhrəmanımızın şəkillərindən ibarət lövhənin məktəblilərə vətənpərvərlik hissinin aşılanmasında, gənc nəslin milli ənənələrə və tariximizə sadiq böyüməsində mühim rolu olacaqdır. Hər gün məktəblilər tər çiçəklərlə qəhrəmanlarımızı yad edəcəklər və onları ehtiramla anacaqlar.

“Milli Qəhrəmanlar” guşəsinin açılış mərasimində Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Binəqədi Rayon İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsi, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyi, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, Binəqədi rayonu şəhid ailələri və Qarabağ əlilləri təşkilatının nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Daha sonra “Qəhrəmanlarımızı tanıyaq və tanıdaq” mövzusunda tədbir baş tutdu. Tədbirdə Binəqədi rayon İcra Hakimiyyətinin əməkdaşları, Bakı şəhər Baş Təhsil İdarəsinin Məktəbdənkənar fəaliyyətin təşkili sektorunun müdiri Mürsəl İmanov, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov, həmin Təşkilatın Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri polkovnik Adil Haqverdiyev, Təşkilatın



əməkdaşı Səidə Abdullayeva, “Milli Qəhrəmanları Tanıtma” İctimai birliyinin sədri Elşən Uluxanlı, Azərbaycan Respublikasının Milli Qəhrəmanları Bəxtiyar Allahverdiyev, Zabit Quliyev və İntiqam Atakişiyev, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Binəqədi rayonu üzrə sədri Telman Hətəmov, İlham Qayıbzadə, Mahəddin Rüstəmov, Fizuli Həsənov və başqaları, o cümlədən, 100 saylı orta məktəbin müəllim - şagird kollektivi iştirak etmişdirlər.

Tədbir məktəblilərin ifasında ədəbi - bədii kompozisiyadan ibarət idi: Dövlət himnimiz səsləndi, məktəblilər şeir, musiqi nömrələri ifa etdilər. Sonra məktəblilər Mübariz İbrahimov haqqında hazırladıqları səhnəciyi nümayiş etdirdilər.

Tədbirin sonunda Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı bir sıra şəxsə medal və fəxri fərmanlar təqdim olundu.

***SƏİDƏ ABDULLAYEVA***

# Respublika Veteranları Təşkilatında “Milli qəhrəmanlarımızı tanıdaq və yaşadaq!” mövzusunda tədbir keçirilib

Noyabrın 30-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında hərbi vətənpərvərlik mövzusunda “Milli qəhrəmanlarımızı yaşadaq!” adlı tədbir keçirilib.




Tədbirdə Prezident Administrasiyasının, Müdafiə Sənayesi və Müdafiə nazirliklərinin əməkdaşları, qeyri-hökumət təşkilatlarının nümayəndələri, milli qəhrəmanlar, müharibə, əmək, Silahlı Qüvvələr veteranları və gənclər iştirak ediblər.

Respublika Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək bildirib ki, ölkəmizin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində hərbi-siyasi və hərbi-texniki sahədə böyük uğurlar qazanması xalqımız tərəfindən rəğbətlə qarşılanır. Bu gün Azərbaycan Ordusuna lazım olan silahların hazırlanmasında Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi məhsullara böyük ehtiyac var. Nazirliyin istehsal etdiyi silah-sursatlar dünyanın qabaqcıl ölkələrində istehsal edilən məhsullardan üstündür. Aprel ayında cəbhə xəttində erməni təxribatlarının qarşısının alınmasında, ölkənin ərazi bütövlüyünün, dinc əhalinin təhlükəsizliyinin qorunmasında nazirliyin istehsalı olan silahlardan da istifadə edilib. Həmin silahlar və hərbi sənaye sahəsi mühəndislərimizin əməyinin nəticəsi olan texnikamız döyüş sınağından uğurla çıxaraq düşmənə sarsıdıcı zərbə vurub.

Milli qəhrəmanlarımızı tanıtmaq və yaşatmaq məqsədilə Respublika Veteranları Təşkilatının, “Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondunun, “Qürur” Şəhid Ailələri Xeyriyyə İctimai Birliyinin, “20 Yanvar” İctimai Birliyinin, “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin və “Sosial Rifah və Tədqiqatları” İctimai Birliyinin təşəbbüsü ilə bu il fevralın 2-də Müdafiə Sənayesi Nazirliyinə Azərbaycanın Milli Qəhrəmanı Səfiyar Behbudovun adının əbədiləşdirilməsi üçün yeni istehsal olunan silahlardan birinə onun adının verilməsi ilə bağlı müraciət edilib. Müraciət nazirlik tərəfindən müsbət qarşılanıb, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Səfiyar Behbudovun adının əbədiləşdirilməsi üçün Müdafiə Sənayesi Nazirliyinin mühəndisləri tərəfindən istehsal olunan 120 millimetrlik minaatanın “Səfiyar minaatanı” adlandırılması qərara alınıb.

Tədbir iştirakçıları milli qəhrəmanlara göstərdiyi diqqət və qayğıya görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Sonda Səfiyar Behbudovun bacısı Naibə Behbudova, milli qəhrəman Vahid Quliyev çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlıqlarını ifadə ediblər.

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012 440-21-08***
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi - 3486***
***Dövlət qeydiyyat tarixi - 19.10.2011***

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1600*